# Milli təhsilimizin ən böyük hamisi

***Təhsil həyatımızın ən gərəkli, ən mühüm sahəsidir.***
***O, milli məqsədlər, mənafelər əsasında qurulmalıdır.***

**Heydər ƏLİYEV**

**Zöhrə Orucova**
Xalq Təhsili Muzeyi
E-mail: zohreyusifova@gmail.com

**Annotasiya.** Ümummilli lider Heydər Əliyev Azərbaycan xalqının tarixdə yetişdirdiyi fenomenal şəxsiyyətlərdəndir. O, müasir Azərbaycan dövlətinin memarı, xalqının və dövlətinin müstəqilliyi və inkişafı naminə böyük işlər görmüş dahi şəxsiyyətdir. Ulu öndər Azərbaycan xalqının milli dövlətçilik mübarizəsindəki misilsiz xidmətləri ilə bütün dünya azərbaycanlılarının sonsuz sevgisini qazanmışdır. Azərbaycan elm və təhsili hər zaman böyük tarixi şəxsiyyət olan Heydər Əliyevin diqqət və qayğısı ilə əhatə olunmuşdur. Bu məqalədə Heydər Əliyevin Azərbaycanda milli təhsil quruculuğu sahəsində göstərdiyi əvəzolunmaz xidmətlərindən danışılır.
**Açar sözlər:** Azərbaycan, Heydər Əliyev, təhsil, müəllim, məktəb, milli

**Məqalə tarixçəsi:** göndərilib – 19.01.2023; qəbul edilib – 26.01.2023

# The greatest guardian of our national education

***Education is the most important, most significant area of our life. It must be built on the basis of national interests and goals.***

**Heydar ALIYEV**

**Zohra Orujova**
National Museum of Education
E-mail: zohreyusifova@gmail.com

**Abstract.** National leader Heydar Aliyev is one of the phenomenal personalities brought up by the Azerbaijani people in history. He is the architect of the modern Azerbaijani state, a genius who has done great things for the independence and development of his people and state. The great leader won the endless love of Azerbaijanis all over the world with his unparalleled merits in the struggle for the national statehood of the Azerbaijani people. Science and education in Azerbaijan have always been surrounded by the attention and care of the great historical figure Heydar Aliyev. This article tells about the invaluable merits of Heydar Aliyev in the field of national education in Azerbaijan.
**Keywords:** Azerbaijan, Heydar Aliyev, education, teacher, school, national

**Article history:** received − 19.01.2023; accepted − 26.01.2023

## Giriş / *Introduction*

Azərbaycana rəhbərliyinin bütün dövrlərində elm və təhsilin inkişafına himayədarlıq edən, ölkəsinin tərəqqisini məhz xalqın maariflənməsində görən Ulu öndər Heydər Əliyev xalqına, milləti-

nə, dövlətinə ləyaqətlə xidmət edən tarixi şəxsiyyətdir. Bu müdrik şəxsiyyətin siyasətində milli tərəqqidə və müstəqil dövlət quruculuğunda əvəzedilməz vasitə olan təhsil, xalqın intellektual potensialının möhkəmlənməsi və təhsil sisteminin ahəngdar inkişafı həmişə ön planda dayanmışdır. Ulu öndərin təhsillə bağlı nəzəri fikirlərinin əsasını təhsilin məzmununun müstəqil Azərbaycanın milli dövlətçilik prinsipləri əsasında qurulması ideyası təşkil etmişdir. "Təhsil millətin gələcəyidir", – deyən Heydər Əliyev hakimiyyətə gəlişinin ilk günündən ölkənin sosial-iqtisadi inkişafında aparıcı istiqamətlərdən biri olan təhsilin tərəqqisinə nail olmaq üçün bütün potensial imkanlardan istifadəyə şərait yaratdı.

Xalqın intellektual səviyyəsinin artırılmasını ən ümdə vəzifə hesab edən görkəmli dövlət xadimi hələ ölkəyə birinci rəhbərliyi dövründə (1969-1982-ci illər) Azərbaycan təhsilinin inkişafına mane olan bir sıra amilləri aradan qaldırmış, Maarif Nazirliyinin tərkibini milliləşdirməklə təhsilin inkişafına nail olmuşdu. Xalq maarifi müəssisələrinin saxlanmasına çəkilən xərclər 1969-cu ildən başlayaraq hər il artırılırdı.

## Əsas hissə / *Main Part*

Heydər Əliyevin Azərbaycan maarifinin inkişaf etdirilməsi sahəsindəki fəaliyyətinin başlıca istiqamətlərinə respublikanın hər yerində yeni məktəblərin tikintisi, təhsilin kütləviləşdirilməsi, məktəbyaşlı uşaqların təhsilə cəlb olunması, müəllimlərə qayğı, kənd yerlərində təyinatla işləyən müəllimlərə güzəştlər, gənclərə ali təhsil almaq üçün şərait yaradılması, ali məktəblərin sayının artırılması, onların maddi-texniki bazasının gücləndirilməsi və digər məsələlər daxil idi. Ulu öndər Azərbaycan təhsilinin qabaqcıl dünya ölkələrinin təhsil sistemi ilə əlaqəsinin qurulmasına çalışırdı.

Heydər Əliyevin hakimiyyətə gəlməsindən az sonra Azərbaycanda orta təhsil sahəsində yeni irəliləyiş əldə edildi, təhsilə cəlb edilən uşaqların sayı nəzərəçarpacaq dərəcədə artdı. 1969-1982-ci illərdə Azərbaycanda 849 ümumtəhsil məktəbi, yəni ildə orta hesabla təxminən 7 məktəb tikilərək istifadəyə verilmişdi [1, s.74]. Məktəblərin maddi-texniki bazası, təchizatı yaxşılaşır, məktəb kitabxanaları, fondları xeyli dərəcədə zənginləşir, məktəb emalatxanaları və müxtəlif peşəyönümlü sahələr inkişaf etdirilirdi. Heydər Əliyev Azərbaycan müəlliminə hər zaman xüsusi qayğı göstərir, onlara müxtəlif fəxri adlar verir, ən qabaqcılları ölkə miqyasında tanıdırdı. Bir sözlə, Azərbaycan xalqının böyük tarixi ərzində məktəb və maarifin ən yüksək inkişafı 70-80-ci illərdə oldu.

O dövrdə hərbi təhsilin inkişafı da Heydər Əliyevin xüsusi diqqətdə saxladığı məsələlərdən idi. Azərbaycan ərazisində SSRİ səviyyəsində strateji əhəmiyyət kəsb edən bir neçə ali hərbi məktəb olmasına baxmayaraq, həmin dövrdə azərbaycanlılar hərbi kadr hazırlığına və SSRİ hərbi elitasına yaxın buraxılmırdılar. Təbii ki, bu məsələ Heydər Əliyevi ciddi narahat edirdi. Ulu öndərin birbaşa müdaxiləsi ilə 70-ci illərdən başlayaraq Bakıdakı ali hərbi məktəblərə azərbaycanlı gənclərin qəbulu intensiv şəkildə artmağa başladı. Heydər Əliyev Azərbaycan gənclərinin ali təyyarəçilik məktəblərinə göndərilməsini də şəxsi nəzarətinə götürmüşdü. Heydər Əliyev hərbi sahəyə marağın kütləviləşdirilməsi məqsədilə milli hərbi kadr hazırlığı sahəsində daha bir qəti addım ataraq, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılmasına nail oldu.

Heydər Əliyev Azərbaycanda ali və orta ixtisas təhsilinin inkişafına xüsusi diqqət yetirirdi. Onun hakimiyyətə gəlişinin ilk günlərindən bu təhsil pilləsinin inkişafı üzrə tədbirlər həyata keçirilmişdir. Azərbaycanda müxtəlif təbəqələrdən olan şəxslərin ali təhsil almalarına diqqət verilməsi təhsil, maarif və mədəniyyətin ümumi şəbəkəsini genişləndirirdi. Heydər Əliyevin böyük qətiyyət və prinsipiallıqla yaratdığı şəffaflıq sayəsində həmin illərdə maddi baxımdan imkansız, savadından başqa güvənci olmayan zəhmətkeş balaları da ali məktəblərin sayılıb-seçilən ixtisaslarına qəbul olunmaq imkanı qazandılar.

Heydər Əliyev hakimiyyətə gələrkən respublikada cəmi 13 ali məktəb vardı. Artıq 1980-ci ildə məhz Heydər Əliyevin fəaliyyəti və diqqəti sayəsində Azərbaycanda mövcud olan ali məktəblərin sayı 17-yə çatdırıldı. Bakıda Rus dili və Ədəbiyyatı İnstitutu, İnşaat Mühəndisləri İnstitutu, Naxçıvan və Xankəndi institutları açıldı. Heydər Əliyev bu sayla kifayətlənməyərək, yeni ali məktəblərin açılması işini davam etdirirdi. Məhz onun səyi nəticəsində 18-ci ali məktəb olan Gəncə Texnolo-

giya İnstitutu yaradıldı. 1976-1980-ci illərdə ali məktəblərdə 23 yeni fakültə, 72 yeni kafedra yaradıldı. Artıq 1980-ci ildə Azərbaycanda 140-dan çox müxtəlif ixtisaslar üzrə mütəxəssislər hazırlayan 75 orta ixtisas məktəbi fəaliyyət göstərirdi [1, s.53]. Heydər Əliyevin şəxsi təşəbbüsü və qayğısı sayəsində 1970-1980-ci illərdə Azərbaycandan kənarda, keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ən məşhur ali məktəbində respublikamızın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətin 80-dən artıq sahəsini əhatə edən və ən zəruri ehtiyac duyulan 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gəncin ali təhsil almasına, yüksəkixtisaslı mütəxəssislər kimi hazırlanmasına imkan və şərait yaradılmışdır [3, s.30]. BDU-nun 50, 60 və 75 illik yubiley tədbirləri bilavasitə Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilmişdir. Universitet elminin və təhsilinin inkişafına göstərdiyi qayğıya, onun adını və şöhrətini yüksəklərə ucaltdığına görə, Bakı Dövlət Universitetinin Elmi Şurasının 28 oktyabr 1994-cü il tarixli qərarı ilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev BDU-nun fəxri doktoru adına layiq görüldü [5, s.387].

Azərbaycanda texniki peşə təhsilinin yüksəliş dövrü Heydər Əliyevin ölkəmizə rəhbərliyinin birinci mərhələsinə təsadüf edir. O dövrdə iqtisadiyyatın durmadan inkişafı, sənaye və kənd təsərrüfatı sahələrinin modernləşdirilməsi ilə bağlı kadr hazırlığını yaxşılaşdırmaq məqsədilə texniki peşə təhsilinin inkişafı üçün hər cür şərait yaradırdı. Həmin illərdə Heydər Əliyevin şəxsi təşəbbüsü ilə təhsilin bu sahəsinin inkişafını təmin edən direktiv sənədlər qəbul edildi. Bütün bu göstərilən diqqət və qayğının nəticəsi idi ki, 1970-ci ildə 76 texniki peşə məktəbində 40,9 min şagird təhsil almışdırsa, artıq 1982/1983-cü dərs ilində 184 texniki peşə məktəbində 230 peşə üzrə 110 min şagird təhsil almışdı [3, s.26].

Azərbaycan elmini, mədəniyyətini və ədəbiyyatını dərindən bilən, onu böyük məhəbbətlə sevən, hər zaman yüksək qiymətləndirən, Azərbaycan aliminə və elminə xüsusi qayğı göstərən Heydər Əliyev ölkəyə rəhbərliyinin ilk günlərindən Azərbaycan elminin ölkədə və dünyada tanıtdırılmasına səy göstərir, elmi-tədqiqat institutlarının və elmi işçilərin sayını artırır, görkəmli alimlərin dövlətin müxtəlif orden, medal və mükafatları ilə təltif edilməsinə nail olur, milli ruhlu alimləri təqib və təzyiqlərdən qoruyur və onlara yaradıcılıq şəraiti yaradırdı. Ulu öndərin fəaliyyəti nəticəsində Azərbaycan Cənubi Qafqazın qabaqcıl elm mərkəzinə çevrilərək digər respublikaları xeyli geridə qoymuşdu.

Heydər Əliyev Elmlər Akademiyasının, onun institutlarının, görkəmli alimlərin yubileylərinin keçirilməsinə, ev-muzeylərinin yaradılmasına xüsusi önəm verirdi. Belə yubileylərin keçirilməsi ölkədə elmə olan marağı daha da artırır, Azərbaycan elmini və alimlərini təkcə ölkədə deyil, dünyada da tanıdırdı. 1975-ci ildə Azərbaycan Elmlər Akademiyasının 30 illik yubileyi təntənə ilə qeyd edildi. Heydər Əliyev Akademiyanın "Xalqlar dostluğu" ordeni ilə təltif edilməsi haqqında Sov.İKP MK-ya məktub yazaraq istəyinə nail oldu [1, s.67].

Ümumiyyətlə, Heydər Əliyevin Azərbaycana rəhbərliyinin I mərhələsi Azərbaycan təhsilinin milli tariximizə əsl intibah dövrü kimi daxil olmuşdur. 1988-1992-ci illər isə çağdaş təhsil tariximizin böhranlı illərini əhatə edir. Azərbaycanda hökm sürən xaos nəticəsində digər sahələr kimi, təhsil sahəmiz də tənəzzül dövrünü yaşayırdı. Azərbaycan təhsilinin himayəçisi Heydər Əliyev isə ölkə rəhbərliyindən müvəqqəti uzaqlaşdırılsa da, Naxçıvanda xalqa xidmətlərini davam etdirirdi. Nəhayət, Azərbaycan xalqının təkid və tələbi ilə 1993-cü ildə Heydər Əliyev xilaskar missiyası ilə yenidən hakimiyyətə qayıtdı və müstəqil Azərbaycanda beynəlxalq standartlara uyğun təhsil islahatları əsasında yeni milli təhsil quruculuğuna başladı.

1993-cü ilin iyun ayında ikinci dəfə hakimiyyətə qayıdan Heydər Əliyevin böyük səyi nəticəsində ümumi təhsildə böhrandan çıxış yolları tapıldı. Azərbaycan Prezidenti Heydər Əliyevin memarı olduğu müstəqil Azərbaycan Respublikasının Konstitusiyası ilə 11 illik ümumi icbari təhsilə keçildi, Azərbaycan vətəndaşlarının pulsuz ümumi orta təhsilinə dövlət təminatı verildi. Heydər Əliyevin şəxsi təşəbbüsü ilə 1995/96-cı tədris ilindən ilkin olaraq I-IV sinif şagirdlərinin dərsliklərlə pulsuz təminatı yenidən bərpa edilmiş, 2005-ci ildən isə X-XI sinif şagirdləri də pulsuz dərsliklərlə təmin olunmuşdur.

Ümummilli lider Heydər Əliyevin tapşırığı ilə 1996-cı ildə Azərbaycan hökuməti "Azərbaycan Respublikasında peşə təhsilinin təkmilləşdirilməsi tədbirləri haqqında" qərar qəbul etdi və bu

sahədə islahatın tələblərinə uyğun olaraq, maddi-texniki bazası zəif olan 41 peşə məktəbi ləğv edildi və bir çoxu isə başqaları ilə birləşdirildi [2, s.34].

Heydər Əliyevin 15 iyun 1999-cu il tarixdə təsdiqlədiyi "Azərbaycan Respublikasının təhsil sahəsində islahat Proqramı" təhsil sahəsində islahatların mərhələlərlə həyata keçirilməsi, təhsil standartlarının yeni dövrün şərtlərinə uyğunlaşdırılmasını təmin etdi. İslahat proqramının həyata keçirilməsi nəticəsində Azərbaycanda təhsilin məzmunu yeniləşdirilmiş, yeni proqramlar və dərsliklər hazırlanmış, ayrı-ayrı təhsil sahələri, fənlər üzrə standartların hazırlanması istiqamətində ciddi işlər görülmüşdür.

İslahat proqramında "...yeni təhsil texnologiyasının əsas komponentlərindən biri olan multimedia, monitorinq və s. sistemlərin yaradılması məqsədilə təhsil müəssisələrinin kompüterləşdirilməsi və mərkəzləşdirilmiş informasiya sistemləri proqramını hazırlamaq və tətbiq etmək" nəzərdə tutulurdu. Ümummilli lider Heydər Əliyev bütün sahələrin inkişafına diqqət yetirdiyi kimi, informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin dövlət siyasətində prioritet istiqamətə çevrilməsinin nəticəsi idi ki, 2003-cü ilin fevral ayında "Azərbaycan Respublikasının inkişafı naminə İKT üzrə Milli Strategiya (2003-2012-ci illər)" qəbul olunmuş və 10 il ərzində bu sahədə görüləcək işlərin ümumi istiqamətləri müəyyənləşdirilmişdi [4, s.229].

1993-cü ildən ali təhsil sahəsində islahatlara başlanıldı. İslahatlar ali təhsilin strukturu, məzmunu, idarə edilməsi, pedaqoji kadr hazırlığı və s. kimi məsələləri əhatə edirdi. Ulu öndərin həyata keçirdiyi islahatlar sayəsində Azərbaycandakı əksər ali məktəblərin inkişafı təmin olunmuş, təhsil sahəsində beynəlxalq əlaqələr genişlənmiş, 13 iyun 2000-ci il tarixli fərmanı ilə ölkənin 4 aparıcı ali məktəbinə maliyyə müstəqilliyi, bir neçə ali məktəbə isə "Universitet" statusu verilmişdir. Heydər Əliyevin diqqət və qayğısı nəticəsində təhsilin inkişafına ayrılan büdcə vəsaitinin ardıcıl olaraq artması 1993-2001-ci illərdə təhsil işçilərinin əmək haqqını 9 dəfə artırmağa imkan vermişdir. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 13 iyun 2003-cü il tarixli fərmanı isə təhsil sisteminin əsaslı şəkildə təkmilləşdirilməsinə, idarəetmənin müasir prinsiplər üzrə təşkilinə, onun beynəlxalq standartlara uyğunlaşdırılmasına və dünya təhsil sisteminə inteqrasiyasına zəmin yaratmışdır. Bu fərmanla müəllim hazırlığının keyfiyyətinin yüksəldilməsi məqsədilə Azərbaycan Müəllimlər İnstitutu və onun 12 filialı yaradılmışdır. Bununla yanaşı, yeni təhsil müəssisələri – Dənizçilik Akademiyası, Milli Təhlükəsizlik Akademiyası, Musiqi Akademiyası, Prezident yanında Dövlət İdarəçilik Akademiyası, Milli Konservatoriya və Aviasiya Akademiyası təsis edilmişdir [1, s.77]. Heydər Əliyev "Ali məktəb tələbələri üçün prezident təqaüdünün təyin olunması" haqqında 17 fevral 2003-cü il tarixli Sərəncam imzalamışdır.

Müstəqillik əldə etdikdən sonra Azərbaycanın digər sahələrlə yanaşı, təhsil sahəsində də dünyanın bir çox ölkələri ilə əməkdaşlıq imkanları xeyli genişləndi. Təhsil sahəsində əməkdaşlıq istiqamətlərindən biri də tələbə mübadiləsi idi. Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə qayıdışından və siyasi sabitliyin bərpa edilməsindən sonra azərbaycanlı tələbələrin xaricdə təhsil alması daha geniş vüsət aldı. Hazırda dünyanın bir çox ölkəsində təhsilin müxtəlif pillələri üzrə minlərlə azərbaycanlı təhsil alır. Bu da, təbii ki, Ulu öndərin uğurlu siyasətinin nəticəsidir.

Azərbaycan elmi də öz qurtuluşuna görə, Ulu öndərimizə minnətdardır. 1993-cü ilin iyunundan başlayaraq, bütün sahələrdə olduğu kimi, elm sahəsində də tənəzzülün qarşısı alındı. Azərbaycan elmi dirçəliş yoluna qədəm qoydu. Milli elmimizin inkişafı üçün əlverişli mühit yaradıldı. Heydər Əliyevin milli dövlət quruculuğu strategiyasında dövlət müstəqilliyinin əbədiliyinin, vətəndaş cəmiyyətinin demokratik inkişafının ən hamar yolunun mütləq milli elmdən və milli təhsildən keçdiyi əsaslandırıldı. Ulu öndər ölkəmizdə elmin inkişafı, elmi-texniki potensialın qorunub saxlanılması, elm və təhsil sahəsində yüksəkixtisaslı kadrların hazırlanması, onlara qayğı göstərilməsi, elmi işçilərin cəmiyyətdə nüfuzunun artırılması sahəsində bir sıra mühüm qərarlar imzalamışdır.

Azərbaycan Respublikası Prezidentinin 15 may 2001-ci il tarixli Fərmanı ilə Elmlər Akademiyasına "Azərbaycan Milli Elmlər Akademiyası" statusu verilmişdir. 30 mart 2001-ci il və 1 iyul 2002-ci il tarixli Sərəncamlarla AMEA Rəyasət Heyəti və Akademiyanın bütün işçilərinin əmək

haqları bir neçə dəfə artırılmış, 2002-ci ilin 12 avqustunda AMEA Naxçıvan bölməsinin yaradılması haqqında tarixi sərəncam imzalanmışdır [1, s.80].

## Nəticə / *Conclusion*

Ümummilli lider Heydər Əliyevin təhsilə, elmə, mədəniyyətə, bütövlükdə, Azərbaycan dövlətinə və xalqına hər bir sahədə töhfələri olduqca böyükdür. Onun həyat yolu və fəaliyyəti dövlətimizə və xalqımıza Ulu Tanrının böyük hədiyyələrindən biridir. Heydər Əliyev Azərbaycan təhsilinin üstün inkişafı, ölkənin kadr, intellektual potensialının möhkəmləndirilməsi üçün möhkəm təməl və milli təhsilimizin parlaq gələcəyini təmin edən ümummilli ənənələr formalaşdırmışdır. Azərbaycan xalqının xoşbəxtliyi ondadır ki, Heydər Əliyev xalqına verdiyi bütün töhfələrlə birgə, Ulu öndər kimi dahi, fenomenal şəxsiyyətin genetik keyfiyyətlərini daşıyan, onun idarəçilik və dövlətçilik iş üslubunu dərindən mənimsəmiş, uzaqgörən siyasətini layiqincə davam etdirməyə qadir, Vətənimizə uğurla rəhbərlik edən İlham Əliyev kimi siyasi lideri irs qoyub getmişdir. Bu gün cənab Prezident İlham Əliyev bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də Heydər Əliyev siyasətini layiqincə davam və inkişaf etdirir.

## Ədəbiyyat / *References*


1. Əhmədov, H. “Azərbaycan təhsilinin inkişaf strategiyası”. – Bakı: Elm, 2010.
2. Mərdanov, M., Quliyev, Ə. “Təhsil millətin gələcəyidir”. – Bakı: Təhsil, 2002.
3. Mərdanov, M. “Azərbaycan təhsili dünən, bu gün, sabah”. – Bakı: Təhsil, 2006.
4. Mərdanov, M. “Azərbaycan təhsil tarixi”. III cild. – Bakı: Təhsil, 2011.
5. Mərdanov, M. “Azərbaycan təhsil tarixi”. IV cild. – Bakı: Təhsil, 2012.


# Самый большой покровитель нашего национального образования

***Образование – это самая, важная, самая значительная сфера нашей жизни. Она должна строиться на основе национальных интересов и целей.***

**Гейдар Алиев**


**Зохра Оруджева**
Музей Народного Образования
E-mail: zohreyusifova@gmail.com



**Резюме.** Общенациональный лидер Гейдар Алиев является одним из самых феноменальных личностей в истории азербайджанского народа. Он архитектор современного Азербайджанского государства, гений, сделавший великие дела для независимости и развития своего народа и государства. Бесконечную любовь азербайджанцев всего мира великий лидер завоевал своими беспримерными заслугами в борьбе за национальную государственность азербайджанского народа. Наука и образование Азербайджана всегда были окружены вниманием и заботой великого исторического деятеля Гейдара Алиева. В данной статье рассказывается о незаменимых заслугах Гейдара Алиева в сфере национального образования в Азербайджане.



**Ключевые слова:** Азербайджан, Гейдар Алиев, образование, учитель, школа, национальный